# Xalq yaradıcılığı və özfəaliyyət

Astara Rayon Mədəniyyət Şöbəsinə çox adamlar rəhbərlik edib. Ancaq ilk dəfə ən böyük dönüş Natiq İbadovun dövründə hiss olunub. Ona qədər yaxşı halda adı ortabablar siyahısında çəkilən Astara birdənbirə xeyli irəliləyişə nail oldu. Natiq müəllim şöbəyə rəhbərlik etdiyi qısa müddət ərzində şöbədə əmək intizamını möhkəmləndirdi, kollektivlər arasında əlaqəni gücləndirdi, əməkdaşlara qarşı qayğını bir az da artırdı və s. və i.a.

Bütün bu tədbirləri həyata keçirərkən o ilk növbədə qabaqcıl mədəniyyət işçilərinə arxalandı. Onlardan biri Astara rayon uşaq musiqi məktəbinin direktoru Şadoğlan Bayramov xüsusilə fərqlənir, bölgədə görülən işlərin ağırlığını tərəddüd etmədən çiyinlərinə götürürdü.

Təsadüfi deyil ki, Natiq İbadovun vəzifəsi böyüdülüb icra hakimiyyətinə aparılarkən rəhbər kimi məhz Şadoğlan müəllimin üzərində dayanıldı. Hesab olundu ki, şöbədə yaranmış xoş ənənəni məhz o uğurla davam etdirə bilər.

Bu gün məsuliyyətlə demək olar ki, etimad özünü doğruldur. Astara Rayon Mədəniyyət Şöbəsinin müdiri Şadoğlan Bayramovla ərazini gəzərkən bir daha bunun şahidi olduq. O görülən işlər barədə aşağıdakıları söylədi:

-Hesabat ilində biz xalq yaradıcılığı və özfəaliyyətin inkişafını önə çəkdik. Həyata keçirilən mədəni-kütləvi tədbirlərin hazırlanmasında xalq yaradıcılığının, özfəaliyyət kollektivlərinin, dərnəklərin və s. rolu çox böyük olmuşdur. Fəaliyyətimizdə ona nail olmağa çalışmışıq ki, hər bir yaşayış yerində bunlar inkişaf etsin, özfəaliyyət kollektivlərinin sayı artsın. Hazırda rayonda 300-ə yaxın kollektiv və dərnək fəaliyyət göstərir. Bunların içərisində "Xalq kollektivi" adını "Sevinc" mahnı və rəqs ansamblı (rəhbəri respublikanın əməkdar mədəniyyət işçisi Cəbrayıl Əliyevdir), Şəhriyar adına Kakalos kənd mədəniyyət evinin dram kollektivi (rəhbəri Bənövşə Mahmudovadır) və "Əvəsor" folklor kollektivi (rəhbəri Fərbiyyə Şabanovadır) xüsusilə fərqlənmişlər. Həmin kollektivlər istər ümumrayon, istərsə də ümumkənd səviyyəsində il ərzində keçirilən tədbirlərdə üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər. Rayonda xalqımızın qədim musiqi sənət nümunələrinin qorunmasına diqqət artırılmışdır. Rayonun ən ucqar dağ kəndlərində Aşıq Elxan Şindanlının, Motlayataq kəndində Aşıq Vaqif Rzayevin, qara zurnadan ibarət Şümrüd kəndində Nadir Zülfüqarovun, Vaqo kəndində Pənah Vahabovun, Diquli kəndində Əbdüləzim Nəcəfovun, Vənəşikəş kəndində Vəli Məmmədovun, Lovayın kəndində Məhərrəməli Əlihəsənovun, Kicabə qəsəbəsində Bayram Hacıyevin və başqalarının musiqi qruplarının həm dövlət tədbirlərinin və həm də el bayramlarının hazırlanmasında rolu çox olmuşdur. Artıq bir neçə ildir ki, xanəndə, muğam müəllimi İsabala Həziyevin muğam üçlüyü həm rayonda, həm də respublikada tanınmışdır. Onun şagirdlərinin səsi rayonumuzdan çox-çox uzaqlardan gəlir. Ayrı-ayrı yerli mədəniyyət müəssisələrinin nəzdində özfəaliyyət kollektivləri-mahnı və rəqs ansamblları, dram qrupları vardır. Xüsusilə Ərçivan kəndində "Dərya" instrumental ansamblı (rəhbəri Fəxrəddin Məmmədovdur), Astara şəhərində "Şən səs" ansamblı (rəhbəri Cavad Şəmsiyevdir), "Qaya" (rəhbəri Cəlal Mədətzadədir), Suparibağ kəndində "Arzu" (rəhbəri Sərvət Qasımovdur), Burzu-bənd kəndində "Gənclik" (rəhbəri Davud Qasımovdur) Şiyəkəran kəndində "Şövq" (rəhbəri Rövşən Salmanovdur), Siyəkü kəndində "Səma" (rəhbəri Mahil Kəkəyevdir), Rinə kəndində "Savalan" (rəhbəri Əlvan Hacıyevdir), Telman kəndində "Gülüstan" (rəhbəri İlqar Hacıyevdir), Şüvi kəndində "Zirvə" (rəhbəri Baloğlan Qasımovdur), Sərək kəndində "Əfsanə" (rəhbəri Eynulla Həziyevdir), Qapıçıməhəllə kəndində "Görüş" (rəhbəri Təhminə Mahmudovadır), Şiyəkəran kəndində "Təravət" (rəhbəri Nənəqız Əhədovadır), Kolatan kəndində "Şəlalə" (rəhbəri Solmaz Məcidovadır), Qəcimardə kəndində "Yamac" (rəhbəri Abuzər Qəmbərovdur), Kakalos kəndində "Sevinc" (rəhbəri Nadirə Rövşənqızı), mahnı ansambları, Artupa kəndində "Aratəpə" (rəhbəri Nurəli Əliyevdir), Səncərədi kəndində "Məzhəkə" (rəhbəri Şərif Salmanovdur), Burzubənd kəndində "Üz-üzə" (rəhbəri Şahlar Ağayevdir), Ərçivan kəndində "Görüş" (rəhbəri Səbuhi Rzayevdir), dram-komediya qrupları, Pensər kəndindəki "Qönçələr" (rəhbəri İradə Zəkəriyyəyevadır), Şahacağ kəndindəki "Lolo" (rəhbəri Gözəl Məlikovadır), Kakalos kəndində "Əvəsor" folklor kollektivlərinin məktəblilərdən ibarət (rəhbəri Nadirə Rövşənqızıdır), Astara şəhərində "Coşqun", "Tər qönçələr" (rəhbəri Cəbrayıl Əliyevdir) rəqs qrupları və başqa özfəaliyyət kollektivləri əhaliyə mədəni xidmət göstərirlər. Rayonun Əsxənəkəran kəndində Xudadovların, Qulamovaların, Vənəşikəş kəndində Həmdəmovların, Koraoba kəndində Qasımovların və başqalarının ailə ansamblları rayonda şöhrət tapmışlar. Rayonun ümumtəhsil məktəblərinin nəzdində yaranmış müxtəlif uşaq kollektivlərinin inkişafına da diqqət artırılmışdır.

Rayonun mədəniyyət müəssisələrinin nəzdində onlarla xüsusi dərnəklər həm əhaliyə, həm də gənc nəslə xidmət edir. Bunlardan rəqs, dram, mahnı-muğam, qarmon, nağara, klarnet, tar, qara zurna, saz, gitara, sintezator, bədii qiraət, tikmə, toxuma və başqalarını göstərmək olar. Kakalos kəndində "Nəcib qızlar" tikmə dərnəyi inkişaf edərək tikmə sexinə çevrilmiş, buraya üzv olanların sayı xeyli artmışdır. "Nəcib qızlar"ın əl işləri həm rayon, həm də kəndlərdə keçirilən müxtəlif tədbirlər zamanı milli tikmə sənətimizin nümunələri kimi nümayiş etdirilir. 2004-cü ilin dekabr ayında Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü ilə keçirilən "Əlillərin ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsində rayon mədəniyyət evinin bədii rəhbəri Cəlal Mədətov qalib adını qazanmış və nümunəvi çıxışına görə II dərəcəli diplomla təltif edilmişdir.

"Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramının icrası da ümumi fəaliyyətimizdə diqqət mərkəzində olmuşdur. Rayonda həyata keçirilən tədbirlər sırasında rayon təhsil şöbəsi, Gənclər, İdman və Turizm İdarəsi, rayon polis şöbəsinin müvafiq inspeksiyası ilə birlikdə Dövlət proqramının icrasına diqqəti daha da artırmışdır. Yuxarıda göstərilən təşkilatlarla birlikdə perspektiv və cari tədbirlər planı hazırlanmış və həyata keçirilməsinə diqqət gücləndirilmişdir. Rayon uşaq musiqi məktəbində musiqi təhsili alan 280-dən çox şagirdin müstəqil Azərbaycanın layiqli vətəndaşları kimi formalaşmasından ötrü təsirli tədbirlər görülür. Bütövlükdə məktəbəqədər tərbiyə müəssisələrində və ümumtəhsil məktəblərində mədəni-kütləvi tədbirlərin keçirilməsinə hamiliyi mədəniyyət müəssisələri həyata keçirir. İlin təqvim planında nəzərdə tutulmuş bütün əlamətdar günlərlə bağlı bu kollektivlərdə iş aparılır. Musiqi məktəbi, muzey və kitabxana müəssisələri də özlərinin azsaylı kontingenti ilə diqqətli iş aparır, görüşlər keçirir, gecələr və disputlar təşkil edirlər. Onların vətənpərvərlik tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması ilə əlaqədar mədəni-maarif işinin forma və metodlarından istifadə edilir. Rayon mərkəzində keçirilən tədbirlərə uşaqların dəvət olunmasına Dövlət Proqramının icrası ilə əlaqədar tapşırıqlar verilir. İl ərzində "Bilik", "Müəllim", "Məzun" günlərinin rayon və ayrı-ayrı məktəb səviyyələrində keçirilməsi bu qərardan irəli gələn vəzifələrin həyata keçirilməsinə xidmət edir. Ümumtəhsil məktəblərində il ərzində ayrı-ayrı müəllimlərin yubileylərinin keçirilməsi diqqət mərkəzində saxlanılır. Hər il Astarada məktəblilərin "İstedad" uşaq yaradıcılıq festivallarının keçirilməsi uşaqların təlim-tərbiyəsinə və onların dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04. 08. 2000-ci il tarixli 146 saylı sərəncamı ilə təsdiq edilmiş "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərinin inkişaf etdirilməsinə kömək edən proqramının həyata keçirilməsi ilə əlaqələr müəyyən işlər görülmüşdür. Belə ki, hər il olduğu kimi mədəniyyət şöbəsi təhsil şöbəsi ilə birgə rayonun bütün kəndlərində müsabiqə yolu ilə istedadlı uşaqları aşkara çıxarmış və rayon mərkəzində keçirilən ənənəvi "İstedad" festivalında iştirakını təmin etmişdir. Fərqlənənlərə mükafatlar verilərək rayon uşaq musiqi məktəbində təhsillərinin davam etdirilməsi tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16. 02. 1999-cu il tarixli 27 saylı sərəncamı ilə təsdiq olunmuş "Gənc ailə" proqramının həyata keçirilməsi ilə əlaqədar rayonun mədəni-maarif müəssisələrində bir sıra tədbirlərin həyata keçirilməsi əvvəlki illərdə olduğu kimi diqqət mərkəzindədir. Rayon VVAQ və Gənclər, İdman və Turizm idarəsi ilə birlikdə hazırlanmış tədbirlər planına uyğun olaraq bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmişdir. Hər il rayonda keçirilən 8 Mart-Beynəlxalq Qadınlar günü tədbirində bir qayda olaraq orada iştirak edən 250-ə yaxın rayon ictimaiyyəti nümayəndələri qarşısında ailə quran bir qrup gəncə xeyir-dua verilir, nikah şəhadətnamələri və hədiyyələr təqdim edilir ki, bunlar da artıq ənənə halını almışdır. Ailə qurmuş gənclər bir qayda olaraq rayon mərkəzindəki Şəhidlər xiyabanında, Qəhrəmanlar alleyasında, rayon mədəniyyət evinin qarşısındakı dahi şairimiz Nizami Gəncəvinin heykəli önündə əklil və tər çiçəklər qoyub, Astara tarix-diyarşünaslıq muzeyini ziyarət edir, foto-şəkillər çəkdirir, digər başqa tədbirlər həyata keçirirlər. Rayonun mədəni-maarif ocaqlarında, xüsusilə kitabxanalarda ailənin möhkəmləndirilməsində mühüm rol oynayan maariflləndirmə və səhiyyə sahəsində lazım olan tədbirlərin görülməsinə diqqət yetirilir. Hər il keçirilən Yeni il bayramına həsr olunmuş ümumrayon tədbirlərində şəhər 2 saylı klubun moda dərnəyi yeni ilin gəlinlərin geyim formalarını, saç düzümünün necə qurulmasını müzakirə edirlər ki, bunlar da gəlin və qızların müəssisələrimizə olan diqqətini artırır. Həmin tədbirlərdə ailə quran gənclərlə birlikdə milli üslubda yeni ilin geyim nümunələrini nümayiş etdirirlər.

Rayonun mədəniyyət evi və kitabxanalarında fəaliyyət göstərən dərnəklərin bir çoxu evdarlıq, tikmə, təkəlduz və s. ailə quran gəlinlər üçün vacib olan məişət məsələlərinə həsr olunmuşdur. Kakalos, Pensər, Səncərədi kəndlərində və rayon mədəniyyət evinin nəzdində yaradılan bu qəbildən olan dərnəklərə onlarla qız və gəlinlər üzv yazılmışlar. Ərçivan 1 saylı və Astara şəhər 2 saylı klublarında ilk tibbi yardımın sirləri dərnək üzvlərinə öyrədilir. Rayonun mədəniyyət evi və klublarında bu mövzuda tədbirlərin daha da genişləndirilməsi nəzərdə tutulmuşdur.

"Beynəlxalq ailə ili" rayonumuzda ötən il geniş surətdə və yaddaqalan tədbirlərlə qeyd olunmuşdur. Belə ki, rayon MKS-ində yaşlı nəsil və gənc ailələrlə görüşlər keçirilmişdir. Bu görüşlərdə yaşlı nəsil öz həyat təcrübəsindən danışmış və gənclərə dəyərli nəsihətlər vermişdir. 8 Mart Beynəlxalq Qadınlar günü münasibətilə keçirilmiş tədbirdə rayonumuzda yaşayan iki ailənin "Qızıl toy" mərasimi keçirilmiş və gənclərə örnək olan bu ailələrə qiymətli hədiyyələr verilmişdir. Bir neçə ailənin nikah mərasimi məhz rayon VVAQ şöbəsinin iştirakı ilə rayon mədəniyyət evində keçirilmişdir.

Beynəlxalq Ana dili günü ilə əlaqədar istər rayonun təhsil və istərsə də mədəniyyət müəssisələrində birgə tədbirlərin keçirilməsinə fikir verilir. Həmin gün keçirilən tədbirlərdə məktəblilər Ana dili ilə bağlı şair və yazıçılarımızın əsərlərindən ibarət hazırlanmış ədəbi-bədii musiqili kompozisiyanı tamaşaçıların diqqətinə çatdırır, tədbirlərin bayramsayağı və yaddaqalan olmasından, gənc nəslin təlim-tərbiyəsində əvəzsiz rolundan ötrü lazım olan vacib işləri həyata keçirirlər. Xüsusilə kənd kitabxanalarında bununla əlaqədar güşələr, sərgilər hazırlanır, oxucu konfransları, disput və gecələr keçirilir. Bir qayda olaraq ümumrayon tədbirlərində ana və ana dili mövzusu ön plana çəkilir, hazırlanmış ssenarilərdə tamaşaçılara bunlarla bağlı dəyərli fikirlər söylənilərək, mahnılar səsləndirilir. Rayonun uşaq-musiqi məktəbində həmin gün şagirdlərin nümunəvi konserti hazırlanıb keçirilir.

Azərbaycan Respublikası Prezidentinin "Gənclər siyasəti haqqında" 29 iyul 1999-cu il 169 saylı fərmanının icrası ilə əlaqədar hər il rayon Gənclər, İdman və Turizm İdarəsi ilə birlikdə tədbirlər planı hazırlanıb həyata keçirilir. İstər ümumrayon səviyyəsində və istərsə də ayrı-ayrı yaşayış yerlərində gənclər təşkilatları ilə birlikdə 2 fevral "Gənclər günü" bayramsayağı qeyd olunur. Mədəni-maarif ocaqlarında gənclər mövzusunda daimi sərgilər, guşələr, foto-montaclar yaradılmışdır. Onların asudə vaxtının mənalı keçirilməsindən ötrü bir çox gənclər klubları fəaliyyət göstərir. Hər il Astarada respublikamızda və respublikamızdan kənarda təhsil alan tələbə-gənclərlə bayramsayağı görüşlər keçirilir. Müstəqil Azərbaycanın gələcəyi kimi onların tərbiyələndirilməsindən ötrü işin forma və metodlarından geniş istifadə olunur. Mədəniyyət işinə həvəsi olan gənclərin irəli çəkilməsinə və onlara etimad göstərilməsinə hər vasitə ilə üstünlük verilir. Bu istiqamətdə mədəniyyət ocaqlarında rayon Gənclər, İdman və Turizm İdarəsi ilə birgə müxtəlif mədəni-kütləvi idman tədbirləri keçirilmişdir. Bu yaxınlarda artıq keçən ildən bir ənənə şəklini almış həmyerlimiz, Avropa çempionu, güləş üzrə dəfələrlə müxtəlif yarışların mükafatçısı, Beynəlxalq dərəcəli idman ustası Aslan Ağayevin Ərçivan kənd 2 saylı mədəniyyət evində 800-ə yaxın gəncin qatıldığı görüşlərin keçirilməsi, onun şərəfinə respublika səviyyəli tədbirlərin keçirilməsi və burada folklor rəqs və zurna qrupunun əvvəldən axıra qədər fəal iştirakı unudulmaz xatirə-

yə çevrilmişdir. Tədbirdə 3 gün ərzində respublikanın və xarici ölkələrdən gəlmiş adlı-sanlı güləş ustaları iştirak etmiş, gənclər qarşısında nümunəvi ustalıqlarını nümayiş etdirmişlər. Kakalos kənd mədəniyyət evində "gənc dostlar klubu" fəaliyyət göstərir ki, bu klubda gənclərin, orta nəslin və ağsaqqalların iştirakı ilə cəmiyyətimizin bütün məsələlərini əhatə edən canlı dialoq şəklində tədbirlər keçirilir, musiqi proqramları təqdim olunur. Ümumrayon tədbirlərində bir qayda olaraq rəsmi və bədii hissələrdə gənclərin nümayəndələrinin fəal iştirakı təmin olunur. Azərbaycan Respublikası Prezidentinin 17. 02. 1999-cu il tarixli 28 saylı sərəncamı ilə təsdiq edilmiş "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" proqramını icra etmək məqsədi ilə rayonun Təhsil, Gənclər, İdman və Turizm idarəsi, hərbi komissarlıqla birlikdə tədbirlər planı hazırlanıb həyata keçirilir. Bu məqsədlə rayonun ümumtəhsil məktəblərində zona və rayon yarışları, bu mövzu ilə bağlı olan tədbirlər özfəaliyyət kollektivlərinin köməyi ilə həyata keçirilir. "Qartal balası", "Şahin" hərbi idman oyunlarının istər yerlərdə və istərsə də rayon mərkəzində bayramsayağı keçirilməsi təmin edilir. Mədəni-maarif müəssisələrində bu proqramın həyata keçirilməsi ilə əlaqədar təqvim planından asılı olaraq daimi və müvəqqəti guşələr gənclərin diqqətini çəkir. Bir qayda olaraq keçirilən tədbirlərdə II Dünya müharibəsi, Əfqanıstan və Qarabağ müharibələrinin işçtirakçıları dəvət olunur, onlar gənclərə keçdikləri döyüş yolu haqqında xatirələrini söyləyirlər. Xüsusilə rayonun Hamuşam kəndində yaşamış Sovet İttifaqı Qəhrəmanı Mirzə Cəbiyevin, Şüvi kənd mədəniyyət evində 3 şöhrət ordenli Ağahəsən Nəhmətovun və şəhid Elşən Məmmədovun xatirə gecələri, rayon mədəniyyət evində keçirilən ədəbi-bədii musiqili tədbirlər yaddaqalan tədbirlərdəndir. 20 Yanvar, Xocalı faciəsi, 31 mart Milli Soyqırım günləri və ümumiyyətlə Qarabağ hadisələri ilə bağlı tarixi günlərin qeyd olunması daim diqqət mərkəzindədir. Rayonun bütün mədəniyyət müəssisələrində sərgilər və güşələr yaradılmışdır. Dekabr ayında dünya şöhrətli siyasətçi mərhum Heydər Əliyevin vəfatının ildönümü qeyd edilmişdir.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 60 illiyinin keçirilməsi ilə əlaqədar tədbirlər proqramı" çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tədbirlər planının təsdiq edilməsi barədə" Mədəniyyət Nazirinin 14. 11. 2003-cü il tarixli 329 saylı əmrinin icrası ilə əlaqədar rayon tarix-diyarşünaslıq muzeyindəki hərbi vətənpərvərlik bölməsi təkmilləşdirilmiş, yeni fotostendlər təşkil olunmuş, rayonun mədəniyyət müəssisələrində Böyük Vətən müharibəsində xalqımızın qəhrəmanlığını əks etdirən foto- stendlər yaradılmış, Hamuşam kəndində fəaliyyət göstərən Sovet İttifaqı qəhrəmanı Mirzə Cəbiyevin ev-muzeyində və qəhrəmanın xatirəsinə salınmış parkda və eləcə də Astara rayonu ərazisində yerləşən xatirə kompleksinin təmir və abadlığı sahəsində bir sıra işlər görülmüşdür.

Bütövlükdə 2004-cü ildə rayonumuzda keçirilən 20-yə yaxın müxtəlif mədəni-kütləvi tədbirlə bağlı Respublika televiziyasının xəbərlər və başqa proqramlarında, Azərbaycan radiosu və digər kütləvi informasiya vasitələrində materiallar işıqlandırılmışdır.

Bu il qarşımızda daha böyük vəzifələr durur. İnanıram ki, növbəti görüşümüzdə də alnımız açıq olacaq, fərəhimizi yenə də "Mədəni-maarif" lə bölüşəcəyik...

**S. MƏMMƏDOVA**